# ORTA MƏKTƏB KİMYA KURSUNDA FƏNLƏRARASI İNTEQRASİYADAN İSTİFADƏ

**G.N.İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məqalədə müasir dövrdə ən çox işlədilən inteqrasiya anlayışı, onun mahiyyəti, səviyyələri barədə məlumat verilir, digər fənlərlə yanaşı kimya fənni kurikulumunda da inteqrasiyanın əsas prinsip kimi nəzərə alınması qeyd olunur. Kimya dərslərində inteqrasiyadan və inteqrativ kurikulumdan istifadənin zəruriliyi göstərilir.

Hazırda ümumtəhsil məktəblərində tətbiq edilən yeni fənn kurikulumlarında şəxsiyyətyönümlülük, nəticəverimlilik və tələbyönümlülük prinsipləri ilə yanaşı inteqrativlik də əsas götürülmüşdür. Digər fənlərlə yanaşı kimya fənni kurikulumunda da fəndaxili və fənlərarası inteqrasiya imkanları cədvəllər şəklində verilmişdir.

Tədris prosesində müəllimlərin inteqrasiyadan yerində istifadə etmələri xüsusi bilik və bacarıq tələb edir. İnteqrasiya termini demək olar ki, əksər sahələrdə işlədilir və onun barəsində mahiyyətcə eyni, məzmunca fərqli bir çox yanaşmalara rast gəlinir. İnteqrasiya bərpa olunma, bütöv, bütövləşmə, tam, vahid mənalarını verən “inteqratio”, “inteqer”, “inteqrations” latın sözlərindən götürülmüşdür. Verilən mənalardan belə nəticəyə gəlmək olar ki, hər bir sahədə tamlığın, bütövlüyün olması zəruridir və buna uyğun fəaliyyət göstərilməlidir.

İnteqrasiya müəyyən bir təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asılılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiya terminindən geniş mənada istifadə edilməsinə XX əsrin sonundan başlanılmışdır. Lakin həyat yarandığı gündən etibarən, cəmiyyət özü də bütün proseslərdə təcrid olunmuş şəkildə yox, dünya ölkələri ilə əlaqəli şəkildə inkişaf edir, formalaşır. Bu əlaqələrdən biri də təhsil sahəsidir. Bu baxımdan da digər sahələrlə yanaşı təhsildə də həmin əlaqəyə inteqrasiya müstəvisində yanaşılmasına zərurət yaranmışdır.

Hazırda ümumtəhsil məktəblərində tətbiq edilən fənn kurikulumlarının səciyyəvi cəhətlərindən biri onların inteqrativ xarakterli olmasıdır. Kimya fənni kurikulumunda məzmun xətlərinin “maddə və maddi aləm”, “kimyəvi hadisələr”, “eksperiment və modelləşdirmə”, “kimya və həyat” kimi adlandırılması da

inteqrasiyanı təmin edir. Həmin məzmun xətləri üzrə verilən standartların bilik komponentləri aşağıdakı fəaliyyət xətləri ilə əlaqələndirilir:

1. Maddələrin adlandırılması
2. Təyin etmə
3. Tərtib etmə
4. Xarakterizə etmə
5. Problemlərin həlli
6. Kimyəvi təcrübələrin yerinə yetirilməsi
7. Məsələ və çalışma həlli, kimyəvi hesablamalar
8. Ünsiyyətqurmaq və əlaqələndirmə
9. Təqdim etmə

Göstərilən fəaliyyət xətləri məzmun standartlarının mənimsənilməsi prosesini təmin edir.

İnteqrativ kurikulum müəllim və şagirdlər üçün aşağıdakılara nail olmağa imkan verir:

- məsələlərə qlobal yanaşma;
- konsepsiyaların (anlayışların) əlaqələndirilməsi;
- fənlərin və mövzuların birləşdirilməsi;
- eyni zamanda müxtəlif resurslardan istifadə və s.

İnteqrativ kurikulum ilə sinonim kimi çox vaxt fənlərarası kurikulum ifadəsi də işlədilir. İnteqrativ kurikulumun tərkib hissələri aşağıdakılardan ibarətdir.




- Təcrübi inteqrasiya – təcrübələr mövcud anlayışları dərinləşdirir və genişləndirir.
- Sosial inteqrasiya – şagirdlərin demokratik öyrənmə prosesi ilə təəsüratlarını bölüşdürmək üçün imkan yaradır.
- Biliklərin inteqrasiyası – şagirdlər əvvəlki bilik, bacarıq və vərdişlərini yeni tədqiqatlar zamanı əsas kimi götürürlər.

Təhsil işçilərinin fikrincə tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, şagirdlərdə tədqiqatçılıq meyllərinin yaranması üçün vacib şərtdir.

Mütəxəsislər inteqrativ kurikulumların yaradılması zərurətinin səbəblərini aşağıdakı kimi göstərirlər:

- İnteqrasiya olunan mövzu və anlayışların tədrisi üçün istənilən təlim formasından istifadə etmək mümkündür.
- Təlim materialı ilə yüklənmənin, eyni konsepsiyanın müxtəlif fənlər vasitəsilə təkrar öyrənilməsinin qarşısı alınır.
- Təlimin müxtəlif mərhələlərində (şaquli inteqrasiya) və anlayışların əlaqələndirilməsinə (üfüqi inteqrasiya) imkan yaranır.

İnteqrativ kurikulum mühüm tədqiqat suallarının qoyulmasına və onun ətrafında geniş araşdırmalar aparılmasına şərait yaradır. İnteqrativ kurikulum tətbiq edilərkən burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlamaq daxildir.

Fənlərarası kurikulum fənnin imkanını məhdudlaşdıran məsələləri aradan qaldırır və fənn kurikulumlarının müxtəlif tərəflərini əlaqələndirməklə geniş sahələrin öyrənilməsinə kömək edir. İnteqrativ və fənlərarası kurikuluma aid olan bütün islahatlar belə qruplaşdırılır; fənlərin birləşdirilməsi, yaradıcı fəaliyyətə diqqətin artırılması, dərslikdənkənar mənbədən istifadə, konsepsiyalar arasında qarşılıqlı əlaqələr, dəyişkən cədvəllər, şagirdlərin dəyişkən qruplaşdırılması.

**Fənlərarası inteqrasiya səviyyəsi.**

İnteqrativ təlimin təşkili zamanı fənlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verilir. Bu inteqrasiya səviyyəsi bir neçə fənnin əhatə etdiyi ortaq anlayış, bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin öyrənilməsində istifadəsini nəzərdə tutur. Fənlərarası inteqrasiya təlim materiallarının digər fənlərin imkanları hesabına məzmun etibarilə genişlənməsinə, məsələlərin dərin təhlilinə və ümumiləşdirilməsinə xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin edir və təlim prosesinin artırılmasına şərait yaradır.

Metodik ədəbiyyatlarda fənlərarası bacarıqlar adlanan xüsusi bacarıqlardan danışılır. Fənlərarası bacarıqlar bir neçə fənnin məzmunu ilə bağlı meydana çıxır və real həyat situasiyaları üçün faydalı olur. Çünki onlar fənləri əlaqələndirmək üçün təbii vasitə rolunu yerinə yetirir.

Fənlərarası bacarıqlar şagirdlərdən mürəkkəb fəaliyyətlərin yerinə yetirilməsini tələb edir. Belə bacarıqlara tədqiqatçılıq, tənqidi yanaşma, səmərəli ünsiyyət, problemin həlli, inteqrasiyaların idarə edilməsi və s.-ni misal göstərmək olar.

Müəllimlər öz səriştə və bacarıqlarından asılı olaraq dərs prosesində mahiyyət və məzmunca yaxın (qohum) fənlərə aid şagirdlərə təbii əlaqələr şəraitində ümumiləşdirilmiş biliklər verirlər. Lakin fikrimizdəki yenilik ondan ibarətdir ki, bu əlaqələrin yaradılması inteqrasiya adı altında fənn kurikulumlarında bir prinsip, məzmun komponentlərinin biri kimi qəbul edildiyi üçün, müəllimlər dərsin planında bunu bir dövlət tələbi kimi nəzərə almalıdırlar. Yuxarı siniflərdə fənlərin ayrılması ilə əlaqədar olaraq inteqrasiya yaradılması mümkün olan fənlərin müəllimlərin özlərinin daima əlaqədə olması zərurətini yaradır.

Kimya təbiət elmlərindən biri olduğu üçün bizi əhatə edən maddi varlığı öyrənir, təbiət hadisələrinin qarşılıqlı əlaqəsinin dərk edilməsi üçün dünyagörüşü formalaşdırır. Fənni tədris edən müəllimlər bu prosesdə kimya ilə bilavasitə əlaqəli olan digər təbiət elmlərinə aid biliklərdən istifadə edirlər. Bu baxımdan kimya fənninin tədrisində inteqrasiyadan yüksək dərəcədə istifadəyə zərurət yaranır.

Kimya fənninin öyrəndiyi maddələr, onların birləşmələri ətraf aləmlə əlaqəli olduğu üçün şagirdlərin ekoloji biliklərinin inkişaf etdirilməsində də inteqrasiya yaradılması vacibdir. Fənnin kurikulumunun "Kimya və həyat" məzmun xəttinin standartlarında bu məsələ öz əksini tapmışdır. Buna görə də ekoloji təhsil, ekoloji bilik və bacarıqların mahiyyəti və məzmununa dair ədəbiyyat materiallarının öyrənilməsi və kimya dərslərində mövzuya uyğun inteqrasiya yaradılması vacibdir. Şagirdlərin daima rastlaşdıqları ekoloji problemlərin mahiyyətini dərindən dərk etmələri üçün, onları yaradan səbəblər kimya bilikləri ilə inteqrasiya olunaraq araşdırılmalıdır. Kimyanın tədrisində ekoloji biliklərin inteqrasiya edilməsinin böyük təlim tərbiyəvi əhəmiyyəti vardır. Ekoloji biliklərin inteqrasiyası şagirdlərin nəzəri təsəvvürlərini genişləndirir, həmin bilikləri istehsal fəaliyyətində, təbiəti mühafizədə, təbii sərvətlərdən səmərəli istifadə edilməsi və bərpasında, insanın sağlamlığının möhkəmləndirilməsi kimi məsələlərdə praktik olaraq tətbiq etməyə imkan yaradır.

Kimya fənni əsasən biologiya, fizika, coğrafiya, riyaziyyat və bəzi digər texniki fənlərlə əlaqəli şəkildə tədris edilir.

Maddələrin tərkibi, quruluşu ilə əlaqədar mövzularda fizika, onların canlı orqanizmdə gedən proseslərə aid izahında biologiya, kəşfi, təbiətdə tapılmasında coğrafiya, məsələ həllində riyaziyyat, hər hansı qurğunun sxem və modelini hazırlayanda rəsmxət kimi fənlərlə əlaqə yaradılması məqsədəuyğundur.

Kimya dərslərində yalnız təbiət elmləri ilə deyil, eyni zamanda texniki fənlərlə də əlaqəyə ehtiyac olması fənnin inteqrativliyini daha yüksək pilləyə qaldırır, onun aparıcı rolunu yüksəldir, müxtəlif təlim metodlarından səmərəli istifadə etməyə imkan verir, daha çox elm sahələri ilə birgə əlaqələr qurmağı tələb edir.

| Kimya fənni üzrə mövzular | Biologiya fənni üzrə mövzular | Fənlərarası əlaqə |
|---|---|---|
| Kimya laboratoriyasında təhlükəsizlik texnikası qaydaları | İnsan və onun sağlamlığı. | Kimyəvi maddələrin insan orqanizminə təsiri. Kimyəvi yanıqlar və zəhərlənmələr zamanı ilk yardım. |
| Kimyəvi reaksiyanın tipləri | Maddələr mübadiləsi. Energetik mübadilə prosesləri. | Kimyəvi reaksiyaların tipləri nöqteyi nəzərindən orqanizmdə baş verən biokimyəvi proseslər. |
| Su | Yer kürəsində həyatın yaranması. Orqanizmin daxili mühiti. Hüceyrədaxili proseslər. | Planetimizdə suyun əhəmiyyəti. Orqanizmdə biokimyəvi proseslərin təzahürünün vacibliyi. |

**İstifadə edilmiş ədəbiyyat:**


1. M.M.Abbasov, A.H.Əliyev. Kimyanın tədrisində müasir təlim texnologiyaları. Kimya məktəbdə, 2009, №1.
2. M.Abbasov, A. Əliyev, M. Fərəcov, V.Əliyev. Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı. (kurikulum) (VII–XI siniflər üçün) Kimya məktəbdə, 2014, 2-3 (46-47), s. 4 -18.
3. N. Mehdiyeva. Yeni fənn kurikulumları ilə inteqrasiya. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, “Kövsər” 2008. Səh.109-119.
4. A.F.Şamilova, A.Z.Məmmədova, G.V.Şadlinskaya. Orta məktəb kimya kursunun VII sinfində “Elektroliz” mövzusunun tədrisində fəndaxili inteqrasiyanın yaradılması imkanları. Kimya mətbdə, 2017, №2-3, (58-59) səh. 83-88.

*Г.Н. Исмайилова*

**Использование межпредметной интеграции по химическому курсу средней школы**

**РЕЗЮМЕ**

В статье представляется информация о наиболее употребляемом в настоящее время понятии интеграция, ее сути и уровнях; интеграция отмечается как главный принцип в химическом предметном курикулуме, наряду с другими предметами.

На уроках химии показана необходимость использования интеграции и интегративного курикулума.

*G.N. Ismayilova*

**The use of interdisciplinary inteqration in high scool chemistry**

**SUMMARY**

The Article presents information on the most commonly used consept of inteqration, its essence, levels; inteqration is noted as the main principle in the chemical subject curriculum, along with other subjects.

The chemistry lessons demonstrate the need to use inteqration and inteqrated curriculum.

**Açar sözlər:** inteqrasiya, fənn kurikulumu, fənlərarası inteqrasiya, biologiya, coğrafiya.

**Ключевые слова:** интеграция, предметный курикулум, межпредметная интеграция, биология, география.

**Key words:** inteqration, subject curriculum, interdisciplinary inteqration, biology, geography.